# Şəhid mayorun qürurlu anası

**Şəhidlərimiz ən böyük mənəvi zirvəni fəth edirlər. Amma onlardan geriyə elə ağrılı yaralar qalıb ki, sağalması mümkün deyil. Ən dərin yara isə sözsüz ki, şəhid anasının qəlbində açılıb. Bu yara həm övlad itirmək, həm də onunla qürur duymaq arasında adsız duyğuda qövr edir.**

44 günlük Vətən müharibəsi zamanı qələbənin bir addımlığında Şuşada şəhadətə ucalan mayor Fərid Ələkbərovun anası Şükufə Hüseynova ilə həmsöhbət olduq. 5 ildir ki, oğlunun yoxluğunun ağrısını qəlbində daşıyan ananın sinəsi dağlı olsa da, balası haqqında danışanda yenə də gözlərində qürur duyulur. Çünki o, özünün də dediyi kimi, Vətənə, millətə oğul olan övlad böyüdüb. Bu oğul özünə “şəhid”, Şükufə xanıma isə “şəhid anası” kimi şərəfli bir status qazandırıb...

**Şükufə ana oğlu ilə son söhbətini belə xatırladı:**

– Vətən müharibəsi başlayanda evdə hamımıza təlimə gedirəm deyib gənc zabitlərlə ön cəbhəyə yollandı. Noyabrın 7-də mənə zəng edib qələbə müjdəsi verdi. Dedi ki, ana, Şuşa artıq bizimdir. Sən narahat olma, hər şey yaxşı olacaq. Bir müddət sənə zəng edə bilməyəcəm, məndən nigaran qalma. Bu onunla son söhbətim oldu... Ondan sonra Fəriddən xəbərimiz olmadı...

...1980-ci il iyulun 18-i mənim üçün ən xoşbəxt gün idi. Çünki anadan olduğum gündə əkiz övladlarım Fərid və Rüfət dünyaya gəlmişdi. Artıq 5 ildir ki, həmin gün ən kədərli günümdür. Oğlanlarımın hərəsi bir əlim, döyünən ürəyim idi. İndi isə elə bilirəm bir əlim yoxdur.

Vətən qarşısında alnıaçıq, üzüağ olan şəhid anası bu yerdə bir anlıq sükuta daldı və gözünün önünə Fəridli günləri gəldi. Dərindən ah çəkərək söhbətinə davam etdi:

– Oğlum uşaqlıqdan vətənpərvər ruhda böyümüşdü, Vətəninə bağlı idi. Məktəbdə xərcləməyə verdiyimiz pulla qərənfil alıb tez-tez Şəhidlər xiyabanına gedərdi. Xocalı faciəsi baş verəndə isə hərbçi olmağa qərar verdi. Vətəni sevdi, onun üçün yaşadı və onun azadlığı yolunda da canını əsirgəmədi. O, harada olubsa, bizə başucalığı gətirib. Xoş sorağı ilə sevindirib bizi. Həmişə olduğu kimi, yenə də başımızı uca etdi. Şəhidlik hamıya nəsib olmur. O, ölümü ilə də ən ali mərtəbəyə ucaldı.

Qeyd edək ki, Ələkbərov Fərid Tahir oğlu 1980-ci il iyulun 18-də Bakıda dünyaya göz açıb. 1996-cı ildə İstanbul Kuleli Hərbi Liseyinə daxil olub və 2000-ci ildə təhsilini bitirib.

Həmin il Ankaradakı Quru Qoşunları Hərbi Məktəbinə daxil olan Fərid 2004-cü ildə təhsilini başa vurub. Bununla da kifayətlənməyərək İsparta şəhərindəki Dağ Komando Məktəbinə qəbul olub və buranı da müvəffəqiyyətlə bitirib. 2005-ci ildə Polatlı Topçu Məktəbini fərqlənmə diplomu ilə başa vurub. Müharibədən əvvəl Ali Hərbi Məktəbin müəllimi idi.



2020-ci il sentyabrın 27-dən Vətən müharibəsində iştirak edən mayor Fərid Ələkbərov Murov dağındakı yüksəkliklərin alınmasında, Cəbrayıl, Füzuli, Şuşa istiqamətində gedən döyüşlərdə şücaət göstərib. Noyabrın 8-də Xankəndi istiqamətində gedən döyüşlərdə düşmənlə üz-üzə savaşıb. Ayağından qəlpə yarası almasına baxmayaraq, döyüşü davam etdirən qəhrəman zabit düşmənin canlı qüvvəsini məhv edərək taborun mühasirədən çıxmasında müstəsna rol oynayıb.



*Türk general şəhid Fərid Ələkbərovun evini ziyarət etdi*

Təəssüf ki, bu, Fəridin sonuncu döyüşü olub. Fərid Ələkbərov 2020-ci il noyabrın 9-da Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhidlik zirvəsinə yüksəlib və İkinci Fəxri xiyabanda dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Fərid Ələkbərov ölümündən sonra “Vətən uğrunda”, “Şuşanın azad olunmasına görə”, “İgidliyə görə” medalları və “Azərbaycan bayrağı” ordeni ilə təltif edilib.

Fərid Ələkbərov müharibədən əvvəl III dərəcəli “Qüsursuz xidmətə görə”, II dərəcəli “Qüsursuz xidmətə görə”, “Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi”, “Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi”, “Azərbaycan Ordusunun 100 illiyi” yubiley medalları ilə də təltif olunub.

Qeyd edək ki, Fərid Ələkbərov ailəli idi. Bir övladı var. 2022-ci ildən Bakının Yasamal rayonundakı küçələrdən biri onun adını daşıyır.

Şübhəsiz ki, bu gün Fəridin və bütün şəhidlərimizin ruhu şaddır. Çünki indi artıq üçrəngli Azərbaycan Bayrağı Xankəndidə, Xocalıda, Əsgəranda, Ağdərədə də dalğalanır. Ruhun şad olsun, cənab mayor!

*Elenora HƏSƏNOVA*
*XQ*